# Ürəklərdə yaşayan Aqşin



Lerik rayonunun Soru kəndində kiçiklər də, böyüklər də Dövlətovlar ailəsinə böyük hörmət və ehtiram göstərirlər. Bu da ondan irəli gəlir ki, əzəldən xeyirxahlığı, düzlüyü, halallığı həyat amalı seçən təmiz, müqəddəs ocağın hər üzvü bir qayda olaraq ömrünü-gününü Vətənin, xalqın xoşbəxtliyi naminə yaşamaqda görür. Belə ailədən pərvazlanan Aqşinin də qəlbində Vətən eşqi, el sevgisi dərin idi.

Aqşin Tarverdi oğlu Dövlətov 1992-ci ildə 18 yaşı tamam olanda artıq Qarabağ torpaqları qan ağlayırdı. Hərbi xidmətə çağırılanda əlinə silah götürüb Ağdərə bölgəsində xidmətə başlayır. İlk gündən hər an Vətəninin taleyini düşünən cəsur əsgər müharibə meydanlarında qeyrətlə vuruşur, neçə-neçə erməni dığasının axırına çıxır. Göstərdiyi saysız-hesabsız igidlik Aqşinə inam, sevgi qazandırır. Onunla qürur duyub vuruşa gedən əsgərlərin sayı da çoxalır.

Aqşinin son döyüş yeri Ağdərə olur. Bu torpağın azadlığı uğrunda şəhid olur.

✍ **Zəfər Orucoğlu,**
*Azərbaycan Jurnalistlər Birliyinin üzvü*

İki sahil.- 2019.- 21 iyun.- S.9.